# Ən güclü silahımız Vətən sevgisidir

"...Erməni əsgəri ölmək istəmirsə, rədd olub getsin Azərbaycan torpağından!.." Ali Baş Komandanımızın böyük məna yükü olan bu sözləri xain və məkrli, hiyləgər düşmənin dinc əhalinin, günahsız insanların başına yağdırdığı bombalardan daha güclü, daha təsirlidir.







200 ildir ki, biz erməni xislətinin, erməni vandallığının zülmünü çəkirik. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev bunu öz hünəri sayəsində günlərlə ölçülən çox qısa bir müddətdə dəyişdi. Artıq erməni azğınlığına, quldurluğuna son qoyulmaq üzrədir. Ali Baş Komandanımızın xalqa etdiyi hər müraciətdə sonsuz sevinc hissi oyadan, ürəklərə fərəh bəxş edən şad xəbərlər eşidirik. Bu şad xəbərləri Prezidentimizin dilindən eşitmək xüsusi əhəmiyyət kəsb edir, xalqda olan inam hissini qat-qat artırır.

Ali Baş Komandanın xalqa müraciətində deyildiyi kimi: "Bizim yumruğumuz təkcə düşmənin başını əzən yumruq deyil, bu yumruq həm də bizim möhkəm birliyimizdir!" Bəli, bu möhtəşəm yumruğun hesabınadır ki, hər gün cəbhədən xoş xəbərlər gəlir, işğaldan azad edilən torpaqlarımıza sancılan bayraqların sayı artır. Rayonlarımızın işğal tarixlərinin üstündən tədricən xətlər çəkilir. Xalqımız, şanlı ordumuz çox haqlı olaraq böyük qürur hissi ilə Ali Baş Komandanımız İlham Əliyevi igid, hünərvər bir sərkərdə adlandırır. Biz inanırıq ki, Qələbə bayrağımız tezliklə Şuşada, Xankəndidə dalğalanacaq. Bəli, öldü var, döndü yoxdur. Bunu bütün dünya bilsin. Bu sözlər Ali Baş Komandanımızın ətrafında möhkəm birləşmiş şanlı ordumuzun, igid əsgərlərimizin qəti fikridir. Onlar əsl hünər və igidlik göstərir, döyüş meydanında quduz düşmənin layiqli cəzasını verirlər. O düşmənin ki, müharibə cinayətləri törədərək dinc əhalini hədəfə alır, heç bir günahı olmayan uşaqların, qadınların, qocaların başına bombalar yağdırır, evləri, yurd-yuvaları dağıdır, kəndləri, şəhərləri viran qoyur. Bunu Gəncədə, Bərdədə bir daha gördük.

Hansı bir azərbaycanlını dindirsən deyər: "Mən düşmənin də uşağına əl qaldıra bilmərəm, buna ürəyim gəlməz." Çünki bizim ürəyimizdə Allah xofu var, damarlarımızda qanla birlikdə mərhəmət hissi axır. Erməni vəhşiləri isə nəinki dinc insanları, o cümlədən qadınları, qocaları, hətta dilsiz-ağızsız körpələri, uşaqları belə qanlarına qəltan edirlər, heç "uf" da demirlər. Bu, xain erməni xislətidir.

Amma ataların bir sözü var: "Nə tökərsən aşına, o da çıxar qaşığına." Geci-tezi var, onların çirkin əməlləri öz başlarında çatlayacaq.

Bu gün döyüş meydanında ordumuzun hünəri qarşısında duruş gətirə bilməyən düşmən ya məhv olur, ya da güc-bəla ilə başını götürüb qaçır.

Hiyləgər düşmən onu da unutmasın ki, dünya yaranandan həmişə xeyir şərə qalib gəlib. Qisas qiyamətə qalmaz, necə ki, qalmır: Ali Baş Komandanın rəhbərliyi altında Azərbaycan Ordusu, igid əsgərlərimiz düşməndən qisası başqa yerdə yox, məhz döyüş meydanında alır. Azərbaycan əsgərinin cəbhədəki bu irəliləyişi həm də onun erməni təcavüzünə tuş gəlmiş öz doğma ocağına, doğma torpağına, doğma yurd-yuvasına qayıdışıdır.

Gördüyümüz həqiqət budur ki, dünya birliyinin, beynəlxalq təşkilatların edə bilmədiyini Ali Baş Komandanımız və onun rəhbərliyi ilə şanlı ordumuz həll etmək əzmindədir.

Əsgərlərimizin ən böyük, ən güclü silahı Vətən sevgisidir, xalqın, ordunun Ali Baş Komandan ətrafında sıx birləşməsidir. Biz inanırıq ki, bu möhtəşəm birlik tezliklə düşmən üzərində qələbəmizi təmin edəcək. Çünki hamımız Prezidentimizin dediyi böyük bir həqiqət üzərində köklənmişik: Qarabağ Azərbaycandır!

***Tofiq ABDULLAYEV***